UOT 32:93/94

AFƏT GÜLƏLİYEVA
Bakı Dövlət Universiteti "Beynəlxalq münasibətlər" kafedrası
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
afetgulalieva@gmail.com

MÜASİR DÖVRDƏ DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRDƏ ƏRAZİ BÜTÖVLÜYÜ VƏ XALQLARIN ÖZ MÜQƏDDƏRATINI TƏYİN ETMƏSI PRİNSİPİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/90-94

Dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsı prinsiplərinin qarşılıqlı əlaqəsi təkcə beynəlxalq hüququn nəzəri problemi deyil, bu problematika həm dövlətlərin, həm də beynəlxalq təşkilatların praktiki fəaliyyəti üçün də çox aktualdır. Bu, son dövrlərdə bütövlükdə dünyada və onun ayrı-ayrı regionlarında ümumi sülhə və beynəlxalq təhlükəsizliyə hədəyə çevrilən münaqişələrin yaranmasının mənbəyi kimi ərazi problemlərinin əhəmiyyətinin artması tendensiyası ilə bağlıdır. Son zamanlar müasir beynəlxalq hüquqda, eləcə də beynəlxalq münasibətlərdə bu iki prinsipin nisbəti və qarşılıqlı əlaqəsinə dair diskussiyaları aktivləşdirən bir sıra hadisələr baş vermişdir. Belə ki, dünyanın müxtəlif regionlarında, o cümlədən postsovet məkanında olan ərazi münaqişələri dağıdıcı nəticələrlə və əhali arasında çoxsaylı qurbanların verilməsi ilə müşahidə olunmuşdur. Bununla yanaşı, tənzimlənməmiş münaqişələr hərdən "söndürülməmiş qalaraq" gələcək üçün daha böyük təhlükəyə çevrilir. Bu baxımdandır ki, qeyd olunan prinsiplər həm beynəlxalq hüququn, həm tarixin həm də beynəlxalq münasibətlərin maraq dairəsindədir.

Məqalədə, beynəlxalq hüququn ərazi bütövlüyü və xalqların üz müqəddəratını təyin etməsi prinsiplərinin yaranmasının tarixi tələbləri, münaqişələrin qarşısının alınması məqsədilə onların yalnız bir-birlərilə qarşılıqlı şərtləndirildiyi halda dövlətlər arası münasibətlərin tənzimlənməsində praktiki tətbiqinin mümkünlüyü araşdırılır.

Açar sözlər: suverenlik, ərazi bütövlüyü, sərhəd toxunulmazlığı, beynəlxalq sistem,öz müqəddəratını təyin etmə, etnik qrup, xalq, konstitusiya.

Giriş. Müasir dövrdə beynəlxalq münasibətlərin sürətli dəyişkənliyi yeni tendensiyalar yaratsa da, subyektlərinin sayı artsa da, bu danılmaz faktdır ki, münasibətlərin əsas subyekti hələ də dövlətdir. Hər bir dövlət beynəlxalq münasibətlərin iştirakçısı olması ilə bərabər beynəlxalq hüququn da subyektidir və demək ki, beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq fəaliyyət göstərirlər. Soyuq müharibənin başa çatması ilə beynəlxalq hüququn prinsiplərinə yenidən baxmağın zəruri olduğu, bir-birilə ziddiyyət təşkil etdiyi fikri söylənilməkdədir. Xüsusilə, dövlətlərin ərazi bütövlüyü, sərhəd toxunulmazlığı prinsiplərini və xalqların öz müqəddəratını təyin etmə prinsipini qarşı-qarşıya qoymağa çalışırlar (8). Halbu ki, 1970-ci il Beynəlxalq hüquq prinsipləri haqda bəyannamədə vurğulanır ki, "Təfsir və tətbiqdə... prinsiplər bir-biri ilə bağlıdır və hər bir prinsip bütün digər prinsiplər kontekstində nəzərə alınmalıdır" (3).

Ərazi bütövlüyü prinsipinin yaranması tarixindən. Məlumdur ki, tarix boyu ərazi dəyişiklikləri dövlətlər arasında qarşıdurma və sülhün pozulması ilə nəticələnmişdir. Hələ Erazm Roterdamlı (1466-1536) dövlətlər arasında sülhü təmin etmək üçün hökmdarlara dövlətin torpaqlarını istədikləri kimi idarə edib, satmaq, hədiyyə vermək kimi hərəkətlərinə son qoymaq üçün onların torpaq üzərində hüquqlarını məhdudlaşdırmağı məsləhət görürdü. Çünki ərazi dəyişiklikləri dövlətin daxilində narazılıqlara səbəb olur ki, bu da xarici siyasətdə adətən müharibələrə aparır və nəticədə sülh tez-tez pozulurdu. Məhz bu səbəblərdəndir ki, 1648-ci ildə Avropa dövlətləri arasında 30 il davam edən müharibərə son qoyan Vestfal müqaviləsi əsasında formalaşan yeni sistemdə dövlətlərarası münasibətlərdə suverenlik (ərazi bütövlüyü və sərhəd toxunulmazlığı) əsas prinsip olaraq qəbul olunur. Müqaviləni inzalayan dövlətlər çox yaxşı başa düşürdülər ki, əgər bir-birlərinin ərazi bütövlüyü və sərhəd toxunulmazlığı əsas götürülməsə Avropada sülh bərqərar ola bilməz. 1815-ci ildə Vyana sistemində bu öhdəliklər bir daha möhkəmlənir və sistemin yeni dövlətləri də şərtsiz qəbul edirlər. Birinci dünya

müharibəsi də Almaniyanın qonşu dövlətlərə qarşı ərazi iddiaları ilə başlamışdır ki, bunun da qarşısı dünya dövlətləri tərəfindən alınmışdır. 1919-cu il Versal konfransında imzalanmış müqavilədə də yeni sistemdə dövlətlər arasında münasibətlərdə əsas prinsipin məhz ərazi bütövlüyü prinsipi olduğu qeyd olunur. İkinci dünya müharibəsində sonra 1945-ci ildə yeni sistem formalaşdığının təcəssümü olan BMT yaranan zaman Nizamnamənin 2-ci maddəsində beynəlxalq hüququn bəzi prinsipləri öz əksini tapsa da, onlar əsasən məqsəd ya da ümumi öhdəlik kimi qeyd olunmuşdur. 1970-ci ildə BMT Baş Məclisinin qətnaməsi əsasında dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüququ prinsipləri haqqında Bəyənnamə qəbul olunur və qeyd olunur ki, prinsiplərin hər biri digərləri ilə birlikdə izah və tətbiq oluna bilər (7). Amma Avropada bəzi sərhədlərin, xüsusilə də "alman məsələsi" tam həll olunmadığı və müstəmləkəçiliyin tam ləğv olunmadığı səbəbindən sərhəd toxunulmazlığı və ərazi bütövlüyü prinsip olaraq gündəmə gətirilmir.

1975-ci ildə ATƏM-in (ATƏT) yaradıldığı zaman Helsinki Yekun aktında həm sərhəd toxunulmazlığı, həm də ərazi bütövlüyü prinsip olaraq qəbul olunur. Avropada təhlükəsizliyin təmin olunması məsələsi müzakirə olunduğu zaman məhz bu iki prinsipin aktuallaşması əlbəttə ki, çox aydın idi. Hər iki dünya müharibəsinin Almaniyanın qonşu dövlətlərə ərazi iddiaları və sərhədlərinin pozulması nəticəsində Avropadan başladığını dövlətlər çox yaxşı bilirdilər və dünyada təhlükəsizlin təmin olunması üçün dövlətlərin bir-birlərinə qarşı bu yönümlü fəaliyyətdən imtina etməsindən keçirdi. Qeyd olunanlar ərazi bütövlüyü və sərhəd toxunulmazlığı prinsiplərinin beynəlxalq hüquq prinsipi olaraq qəbul olunmasının səbəblərinə aydınlıq gətirmiş olur. Rus tədqiqatçısı L.İ.Volova bildirir ki, "... BMT Nizamnaməsi dövlətlərin həm ərazi toxunulmazlığını, həm də ərazi bütövlüyünü qoruyur" (4, 61).

Xalqların öz müqəddəratını təyin etməsi prinsipinin yaranmsı tarixindən. Birinci dünya müharibəsinin nəticəsi olaraq dörd imperiyanın dağılması və müstəmləkə zəncirlərindən qurtulmuş ərazilərdə yeni dövlətlərin yaranması xalqların öz müqəddəratının təyin etməsi prinsipini aktuallaşdırır. ABŞ prezidenti V.Vilsonun 14 bəndində yer almış bu prinsip yeni yaranacaq dövlətlərin xalqlarına həm daxili (daxili təyinetmə), həm də xarici(xarici təyinetmə) inkişaf istiqamətini istədikləri kimi seçmək hüququ verirdi. Xalqların öz müqəddəratını təyin etməsi prinsipinin yeni dövlətlərarası sistemin formalaşması üçün prinsip olaraq yer almasını əsas iki səbəblə izah etmək olar. İlk növbədə daxili siyasi sistemin istədikləri kimi seçmək fikrinin əsasında birinci dünya müharibəsi gedişatında çar Rusiyasında baş vermiş bolşevik inqilabı nəticəsində imperiyanın dağılması və yeni, fərqli ideologiyaya məxsus sistemlə idarə olunan Sosialist Rusiyasının qurulması dayandığı fikrini irəli sürə bilərik. Belə ki, yeni yaranmış və yarana biləcək dövlətlərin Sosialist Rusiyası təsiri altına düşməkdən "xilas etmək" və məcburiyyət tətbiq etmədən sosialist sistemindən uzaqlaşdırılması üçün düşünülmüşdür. Həm də müstəmləkələrindən ayrılıb müvəqqəti olaraq böhranlı vəziyyətdə qalmış, dövlətçilik təcrübəsi olmayan dövlətlərin, yenidən hələ də imperialist olan digər dövlətlərin təsirləri altına düşməmələri məqsədilə bu prinsip irəli sürülmüşdür. Yeni formalaşacaq dünya nizamında xalqların öz müqəddəratını təyin etməsi prinsipi ilə yanaşmanın tətbiq olunması dünya siyasətinə yeni ideyalarla (xüsusilə də demokratiya) daxil olan ABŞ-ın dövlət maraqlarına və xarici siyasətinə tam uyğun idi. Məlum prinsip ikinci dünya müharibəsindən sonra bir daha aktuallaşır. Həqiqətən, məhz xalqların bərabərliyi və öz müqəddəratını təyin etməsi prinsipinin elan olunması hər iki dünya müharibəsindən sonra keçmiş müstəmləkə ərazilərində yeni suveren dövlətlərin yaranması üçün əsas oldu. Əgər daxili təyin etmə sırf dövlətin daxili siyasi və iqtisadi fəaliyyət istiqamətlərini müəyyənləşdirirsə, xarici təyin etmə xarici siyasi fəaliyyəti müəyyənləşdirir və bu zaman beynəlxalq sistemin qaydaları mütləq nəzərə alınmalıdır. Bir məsələ mütləq qeyd olunmalıdır ki, hər iki dünya müharibəsindən sonra yeni dövlətlərin formalaşması artıq çoxdan mövcud olan, sərhədləri daxilində tanınan heç bir dövlətin suverenliyinə toxunmadan və yalnız keçmiş müstəmləkə ərazilərində baş verirdi.

Soyuq müharibə başa çatdıqdan sonra iki prinsipin qarşılaşdırılması, yoxsa böyük dövlətlərin öz məqsədlərinə çatmaq planları. Bu arada xalqların öz müqəddəratını təyin etməsi prinsipinin inkişaf tarixinə bir daha diqqət edək. BMT nizamnaməsinin bir neçə maddəsi (1, 55, 73) məlum prinsipin izahına toxunur (7). Prinsip öz müqəddəratını təyin etməsi hüququ şəklində 1960-cı il tarixli müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında Bəyannamədə öz gələcək inkişafını və möhkəmlənməsini tapır. Amma "ölkənin milli birliyini və ərazi bütövlüyünü qismən və ya

tamamilə məhv etməyə yönəlmiş hər hansı bir cəhd" BMT nizamnaməsində qəbul olunmaz bir şərt olaraq qoyulur.

1966-cı ildə BMT-də qəbul olunmuş "İnsan haqları haqda beynəlxalq pakt"da "öz müqəddəratını təyin etmə", "siyasi statusunun", "öz iqtisadi, sosial və mədəni inkişafını" seçmək hüququ kollektiv hüquq kimi göstərilir (5).

1970-ci ildə BMT Baş Məclisinin qəbul etdiyi Beynəlxalq hüququn prinsipləri haqda Bəyannaməsində BMT nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq və əməkdaşlıq məsələləri də yenidən xalqların öz müqəddəratını təyin etmə prinsipinin müstəmləkəçiliyin ləğv olunması kontekstində özünü göstərir (3).

Soyuq müharibə başa çatdıqdan sonra 1993-cü ildə məlum prinsip yenidən müstəmləkəçiliyin ləğv olunması kontekstində baxılır.

Bu məqamda, "xalq" sözünə bir daha izah verməyə ehtiyac yaranır. Beynəlxalq hüquqda bir qayda olaraq "xalq", etnik anlamda başa düşülmür, beynəlxalq hüquqi anlayrş kimi, məhz dövlətin (və ya dövlətçilikdən qanunsuz məhrum edilmiş ərazinin) bütün əhalisini bildirir. "xalq" məhz «demos» kimi başa düşülür. Prof.N.Əliyev bu məsələni belə izah edir: "milli azlıqlara "xarici təyin etmənin" subyektləri kimi baxmaq olmaz" (6, 78).

Soyuq müharibə başa çatdıqdan sonra SSRİ-nin dağılması ilə dövlətlər öz müstəqilliklərini yenidən bərpa etdilər. (Bu arada, qeyd etmək lazımdır ki, Yuqoslaviyanın dağılması və Çexoslovakiyanın parçalanmasını SSRİ-nin dağılması ilə eyniləşdirmək olmaz). Təssüflə qeyd etmək lazımdır ki, postsovet məkanında etnik qrupları fəallaşdıraraq xalqların öz müqəddəratını təyin etməsi prinsipini münaqişə üçün zəmin kimi istifadə etməyə çalışanlar bəzi hallarda niyyətlərinə çatdılar. Otuz il davam edən Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasətinin əsasında Dağlıq Qarabağ torpaqlarının işğalı niyyətləri dayanırdı və Ermənistan münaqişənin həllində heç bir əsas olmadığı halda xalqların öz müqəddəratını müəyyən etməsi prinsipə əsaslanırdı. Yuxarıda qeyd etdiyimiz kimi bu prinsipin münaqişələrin həll olunması zamanı istifadə olunması "etnikin" deyil, həmin etnikin ərazisində yaşadığı dövlətin bütün vətəndaşlarının hüququndan söhbət gedə bilər. Azərbaycan Respublikası bütün demokratik prinsiplər və insan haqları Bəyannaməsini əsas götürərək dövlətin hər bir qarışı üzərində hər bir vətəndaşının haqqı olduğunu elan edir və bunu Konstitusiyasında əks etdirir (Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir. Maddə 5) (1). Dövlət ərazisinin dəyişdirilməsi yalnız 11-ci maddədə deyildiyi kimi "Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər" (1). Azərbaycan Respublikası dövlətin idarə olunmasında dinindən, irqindən, millətindən asılı olmayaraq bütün vətəndaşlarının hüquqlarını Ümumdünya İnsan hüquqları Bəyannaməsinindən irəli gələn öhdəliklərə uyğun olaraq təmin edir və həm daxili, həm də xarici siyasətində multukultural siyasət yeridərək bütün xalqların bərabərliyi prinsipinə sadiq olduğunu sübut edir. Yəni göründüyü kimi beynəlxalq hüququn iki prinsipi – ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi prinsipi qətiyyən bir-biri ilə ziddiyyət təşkil etmir, əksinə, biri digərinin daha aydın izahına imkan yaradır. Yalnız dövlətlərin milli maraqlarının təmin olunması eqoistliyində prinsiplər təhrif olunur.

Qloballaşma və inteqrasiya proseslərinin genişlənməsinin tələbləri. Soyuq müharibənin başa çatması ilə qloballaşma, inteqrasiya prosesləri sürətləndiyi, qarşılıqlı asılılığın artdığı bir vaxtda xalqların öz müqəddəratını təyin etməsi prinsipi və ərazi bütövlüyü prinsiplərinin bir-birinə qarşı qoyulmasının ümumiyyətlə məntiqi izahı yoxdur. Belə ki, müasir dövrdə insan haqlarının təmin olunması sahəsində qarşıda dayanan öhdəliklərin yerinə yetirilməsi dövlətlərin əsas məqsədi olmalıdır. Əgər bir dövlət daxilində bütün vətəndaşların insan haqları təmin olunursa, hər bir etnikin öz adət-ənənələrini yaşatmağa qadağa qoyulmursa, dövlətin idarə olunmasında iştirakdan uzaqlaşdırılmırsa, əzilmirsə, sosial bərabərlik təmin olunursa, o halda ayrılmadan söhbət gedə bilməz. Dövlət ərazisində separatçıya çevrilmiş istənilən xalqın nümayəndəsinə qarşı mübarizə aparmaq isə hər bir hakimiyyətin vəzifəsidir, çünki əks təqdirdə dövlətin digər vətəndaşlarının təhlükəsiz mühitdə yaşamaq, inkişaf etmək, sərbəst hərəkət etmək kimi insan haqları pozulmuş olur. Müasir dövrdə əsas məsələ, insan hü-

quqlarının təmin olunmasına və birgə yaşayışın təmin olunmasına çalışmaq lazımdır. Yalnız o halda dövlətlərin demokratikləşməsindən söhbət açmaq olar.

XXI yüzilliyin 20 ilini geridə qoyduğumuz bir dövrdə Yer kürəsinin etnoqrafik xəritəsinə diqqət etsək minlərlə müxtəlif növ etnik qrup, millət, tayfa, etnik icmalardan ibarət mürəkkəb etnik sistem olduğunu görərik. Belə bir mürəkkəbliyin olduğu bir dövrdə xalqların öz müqəddəratının təyin etməsı prinsipinin separatçılığı fəallaşdırmaq yolu ilə ərazi dəyişikliklərinə sövq etmək beynəlxalq təhlükəsizliyə nə qədər ziyan vuracağını təsəvvür etmək elə də çətin deyil. Görünən odur ki, dövlətlər qloballaşma şəraitində öz sərhədlərinin müdafiəsi istiqamətində fəallaşmalı və ərazi dəyişikliyinə yol verməməlidir. Beynəlxalq təhlükəsizliyin təmin olunması dövlətin sərhədlərinin müdafiəsi, ərazi bütövlüyünün qorunması kimi əsas funksiyalarının yerinə yetirilməsindən keçir ki, bunu məhz dövlət yerinə yetirir və beynəlxalq münasibətlərin qeyri-dövlət iştirakçıları da bu fəaliyyətdə dövlətə dəstək olmalıdır.

Nəticə. Xalqların öz müqəddəratını təyin etməsi yalnız tarixi labüdlük deyil, əksinə, kollektiv iradənin alternativ seçimidir. Ərazi dəyişikliyi bir qrup etnikin dövlətin tərkibində yaşamaq istəyinin olmaması ilə müəyyənləşə bilməz və tarix göstərir ki, torpaq üzərində hər bir vətəndaşın haqqı olduğunu yaddan çıxarmaq bu yolda ən böyük qarşıdurmalara gətirib çıxara bilər. Əsas insan haqlarının təmin olunmasına istiqamətlənmək və müasir dövlətlərdən bunu tələb etmək gərəkdir. Amma bir məsələni də yaddan çıxarmaq olmaz ki, Ümumdünya İnsan Haqları Bəyannaməsində də qeyd olunduğu kimi nə hər hansısa bir dövlətə, nə insan qruplarına, nə də ayrı-ayrı şəxslərə Bəyannamədə göstərilən hüquq və azadlıqların ləğv olunmasına(edilməsinə) yönəlmiş fəaliyyətlə məşğul olmaq və əməl törətmək hüququ verməsi yolverilməzdir (maddə 30) (9).

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. 27 noyabr, 1995-ci il: [Elektron resurs]. – URL: https://e-qanun.az/framework/897 [30.11.2023].
2. L.H.Hüseynov. Beynəlxalq hüquq. Dərslik. Bakı: Qanun Nəşriyyatı, 2012, 368 s.
3. Декларация о принципах международного права, касающихся дружественных отношений и сотрудничества между государствами в соответствии с Уставом Организации Объединенных Наций. Принята резолюцией 2625 (XXV) Генеральной Ассамблеи ООН от 24 октября 1970 года. [Электронный ресурс]. - URL: http://www.un.org [30.11.2023].
4. Волова Л.И. Принципы территориальной целостности и неприкосновенности в современном международном праве. Ростов н/Дону, 1981, с.61.
5. Наджиба Мустафаева. К вопросу «о праве на отделение»: принцип права народов на самоопределение vs. права меньшинств: кейс Нагорного Карабаха / Вестник Кавказа, 28 март 2018.
6. Намик Алиев. Восстановление территориальной целостности и суверенитета Азербайджана: правовые аспекты. Баку: Elm və təhsil, 2023, 288 с.
7. United Nations Charter (full text): [Электронный ресурс]. - URL: https://www.un.org/en/about-us/un-charter/full-text [30.11.2023].
8. Поликарпов И.А. Непризнанные государства и право народов на самоопределение // Закон и право, №10, 2021, с.37-40. [Электронный ресурс].- URL: https://cyberleninka.ru/artikle/n/nerpiznannye-gosudarstva-i-pravo-narodov-na-samoopredelenie [30.11.2023].
9. Universal Declaration of Human Rights: [Электронный ресурс]. - URL: https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights [30.11.2023].

АФАТ ГЮЛАЛЫЕВА
кандидат политических наук, доцент кафедры «Международные отношения» Бакинского Государственного Университета

ПРИНЦИП ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ И САМООПРЕДЕЛЕНИЯ НАРОДОВ В ОТНОШЕНИЯХ МЕЖДУ ГОСУДАРСТВАМИ В НОВЕЙШЕЕ ВРЕМЯ

Взаимосвязь принципов территориальной целостности государств и принципов равенства и самоопределения народов является не только теоретической проблемой международ-

ного права, но эта проблема также весьма актуальна для практической деятельности как государств, так и международных организаций. Такая ситуация связана с возрастающим значением территориальных вопросов как источника конфликтов, который может и зачастую создает угрозу общему миру и международной безопасности в мире в целом и в отдельных его регионах. За последнее время в современном международном праве произошел ряд событий, активизировавших дискуссии о взаимосвязи и взаимодействии этих двух принципов. Так, наблюдаются территориальные конфликты в различных регионах мира, в том числе на постсоветском пространстве, с разрушительными результатами и многочисленными жертвами среди населения. В то же время нерегулируемые конфликты иногда «остаются неугасимыми» и становятся большей угрозой для будущего. Именно с этой точки зрения указанная область отвечает интересам международного права, истории и международных отношений.

В статье рассматриваются исторические требования возникновения принципов международного права территориальной целостности и самоопределения народов, а также возможность их практического применения в целях предотвращения конфликтов только при условии их взаимной обусловленности.

Ключевые слова: суверенитет, территориальная целостность, нерушимость границ, международная система, самоопределение, этнические группы, народы, конституция

AFET GULELİYEVA
PhD in Political Sciences, Associate Professor of
Baku State University, Department of International Relations

PRINCIPLES OF EQUALITY AND SELF DETERMINATION OF NATIONS IN THE CONTEMPORARY INTERSTATE RELATIONS

Interrelation between the principles of territorial integrity of states and legal equality and self-determination of nations is not only a theoretical problem of international law, but also an urgent issue for the activities of both states and international organizations. In regard, it is mostly related to the increasing importance of territorial issues as a source of frequent conflicts that threaten common peace and international security in general and in different regions of the world. It noteworthy to acknowledge that several events have taken place in modern international law that have activated discussions on the relationship and interaction of these two principles. Thus, territorial conflicts in various regions of the world, including the post-Soviet area, have been observed with devastating results and numerous victims among the population. Simultaneously, irregulated conflicts sometimes "remain unquenched" and become a greater threat to the future. From this point of view, the issue is turned to the matter of discussion of international law, history and international relations.

The article examines historical requirements for the emergence of principles of territorial integrity and self-determination of nations in international law, as well as possibility of their practical application only if they are mutually conditioned in order to prevent conflicts.

Keywords: sovereignty, territorial integrity, border inviolability, international system, self-determination, ethnic group, nation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 30 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: s.e.d. Adil Mirabdullayev, t.e.d. Sevinc Yusifzadə.